

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 143 (21.295)

24 iyul 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də ATƏT-in Minsk qrupunun həmsədrləri Ceyms Uorliki (ABŞ), İqor Popovu (Rusiya), Pyer Andryönü (Fransa) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar danışıqların hazırkı vəziyyətinə və perspektivlərinə dair məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.



## Dövlət Miqrasiya Xidmətinə işə qəbul olunan yeni əməkdaşlar and içiblər



***Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinə qulluğa yeni qəbul olunmuş gənc əməkdaşların andiçmə mərasimi keçirilib.***

Mərasimdə gənc əməkdaşlar miqrasiya orqanlarında qulluq keçərkən Azərbaycan Respublikasına sadiq olacaqlarına, Konstitusiyamıza dönmədən əməl edəcəklərinə, dövlət sirrini və xidməti sirri qoruyacaqlarına, hüquq və vəzifələrini qərəzsiz, vicdanla, qanuna tam uyğun həyata keçirəcəklərinə, miqrasiya qulluqçusunun şərəf və ləyaqətini uca tutacaqlarına and içiblər.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Fazil Ələkbərov xidmətə yeni başlayan əməkdaşları təbrik edib, onlara uğurlar arzulayıb. Xidmət rəisi qurumun fəaliyyət istiqamətləri, əldə olunan nailiyyətlər və perspektiv planlar haqda danışıb, gənc əməkdaşların qarşısında duran vəzifələrdən söhbət açıb. Fazil Ələkbərov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş Dövlət Miqrasiya Xidmətində yüksək səviyyəli iş şəraitinin yaradıldığını, xidmət aparılması üçün müasir və şəffaf sistemin formalaşdırıldığını, yaradılan imkanların müqabilində əməkdaşlardan səmərəli fəaliyyət tələb olunduğunu deyib, miqrasiya orqanları əməkdaşlarının üzərinə böyük məsuliyyətin düşdüyünü bildirib. O qeyd edib ki, xidmətdə şəffaflıq, operativlik, nəzakətlilik və məsuliyyət prinsipləri əsas prioritetdir.

Sonra xidmətin gənc əməkdaşları Dövlət Bayrağı Muzeyindəki eksponatlarla tanış olublar.

Məlumat üçün bildirək ki, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən muxtar respublikanın miqrasiya orqanlarına işə qəbulla bağlı keçirilən müsabiqənin test mərhələsində 277, müsahibə mərhələsində 75 nəfər iştirak edib, 12 nəfər işə qəbul olunub. Xarici dil bilən və kompüterdə işləmək bacarığı yüksək olanlara müsahibə mərhələsində üstünlük verilib.

**Səbuhi HÜSEYNOV**

## Şahbuz rayonunda sığorta fəaliyyəti müzakirə olunub

*İyulun 23-də Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi Şahbuz Rayon İcra Hakimiyyəti ilə birgə rayonda sığorta fəaliyyəti, görülmüş işlər və qarşıda duran vəzifələr barədə tədbir keçirmişdir. Tədbiri Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev açaraq rayonda sığorta işi sahəsində qarşıda duran vəzifələrdən danışmışdır.*

Yığıncaqda Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək müasir cəmiyyətdə sığortanın əhəmiyyətindən və rolundan danışmış, qeyd etmişdir ki, muxtar respublikamızda sığorta fəaliyyətinin müasir tələblərə uyğun şəkildə təkmilləşdirilməsində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirənin xüsusi rolu olmuşdur.

Baş direktor inkişaf edən cəmiyyətdə insanların sağlamlığının, əmlakının və mülki məsuliyyətinin sığortalanmasının vacib olduğunu vurğulamışdır. Hikmət Əsgərov kənd təsərrüfatında sığorta işinin aparılmasının, bu sahədə məhsul istehsalının fasiləsizliyinin təmin olunmasının əhəmiyyətindən danışaraq qeyd etmişdir ki, iyulun 21-də keçirilən dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu sahənin inkişafı üçün Kənd Təsərrüfatı Nazirliyi və Dövlət Baş Sığorta Agentliyi tərəfindən kənd təsərrüfatında sığorta işinin təşkilinə diqqətin artırılması, istehsalçıların mümkün sığorta hadisələri barədə maarifləndirməsinin vacibliyini vurğulamışdır. Kənd təsərrüfatı sahəsində sığorta işinin aktuallığı günün tələbidir.

Tədbirdə baş vermiş sığorta hadisələrindən danışılaraq qeyd olunmuşdur ki, hər hansı bir gözlənilməz hadisə və ya qəza baş verdikdə bağlanılmış sığorta müqaviləsi əsasında alınan ödənişlər zərərçəkən insanların maddi vəziyyətini bərpa etmək, onu yüngülləşdirmək, zərərləri aradan qaldırmaq üçün mühüm bir vasitədir.

Yığıncaqda tətbiq olunan icbari və könüllü sığortaların əhəmiyyətindən də bəhs olunmuş və bu istiqamətdə Şahbuz rayonunda görülmüş işlərdən danışılmışdır. Bildirilmişdir ki, görülmüş işlərlə bərabər, Şahbuz rayonunda daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hüquqi və fiziki şəxslər arasında sığorta müqaviləsi bağlamayanlar hələ də vardır. Rayonda avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, daşınmaz əmlakın icbari sığortası, ev əmlakının sığortası, fərdi qəza sığortası üzrə də zərərçəkənlərə sığorta ödənişləri verilməsi barəsində faktlar sadalanaraq sığorta təminatının vacibliyi bir daha nəzərə çatdırılmışdır. Yekunda qeyd olunmuşdur ki, qarşıda duran əsas vəzifə ondan ibarətdir ki, bütün sığorta növlərini inkişaf etdirməklə hər bir hüquqi və fiziki şəxs üçün gözlənilməz hadisələrə qarşı etibarlı sığorta təminatı yaradılsın.

Tədbirdə sığorta müqavilələrinin bağlanılması, sığortahaqlarının hesablanması, sığorta ödənişlərinin verilməsi barədə verilən suallar cavablandırılmış, Şahbuz Rayon Dövlət Sığorta Agentliyinin direktoru, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin Şahbuz Rayon Şöbəsinin və Şahbuz Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi bölməsinin rəisləri görülmüş işlər barəsində məlumat vermişlər.

Tədbirə Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev yekun vurmuşdur.

**Xəbərlər şöbəsi**

## Standartların tələblərinə nəzarət diqqət mərkəzindədir

Muxtar respublikamızda keyfiyyət infrastrukturunun inkişaf etdirilməsi, əhalinin sağlamlığının qorunması, məhsul (iş və xidmətlərin) təhlükəsizliyinin təmin edilməsi və keyfiyyətinin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin qarşısında mühüm vəzifələr durur və beynəlxalq norma və prinsiplərə müvafiq olaraq standartlaşdırma, metrologiya, sertifikatlaşdırma, akkreditasiya və sənaye mülkiyyəti obyektlərinin mühafizəsi sahələrində təkmilləşmə, müasir beynəlxalq təcrübənin tətbiqi istiqamətində işlər davam etdirilir.

2015-ci ilin ilk 6 ayı ərzində Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi qanunvericiliklə müəyyən edilmiş hüquq və vəzifələrinin həyata keçirilməsi istiqamətində müvafiq işlər aparmışdır. Dövlət proqramlarında, fərman və sərəncamlarda, sessiya və müşavirələrdə verilmiş tapşırıqların icrası əsas fəaliyyət istiqaməti olmuşdur. 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair, 2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı, 2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması, Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair dövlət proqramlarının icrası diqqətdə saxlanılmışdır.

Komitənin müvafiq işçi qrupları tərəfindən istehsal müəssisələrində, tikinti sektorunda, ticarət, ictimai iaşə, məişət və digər xidmət sahələrində texniki normativ-hüquqi aktların tələblərinə əməl olunma səviyyəsinə, istehlak bazarında məhsulların keyfiyyətinə nəzarət məqsədilə dövri olaraq monitorinqlər aparılmış və bu sahədə maarifləndirmə məqsədilə treninqlər təşkil olunmuş, elektrik, qaz və su sayğaclarının istismar müddətinə və istismardan çıxarılarkən əmtəə görünüşünün dəyişdirilməsinə, məktəbli, tələbə və müəllim geyim formalarının, eləcə də məktəbli ləvazimatlarının keyfiyyət göstəricilərinə, təhsil, o cümlədən məktəbəqədər təhsil müəssisələrinin yeməkxanalarına alınan ərzağın keyfiyyətinə nəzarət tədbirləri təmin edilmişdir. Aparılmış monitorinqlər zamanı standartların tələblərinə uyğun olmayan 9797,8 manat dəyərində məhsul satışdan çıxarılaraq götürülmüşdür ki, bunlardan 2599 manat dəyərində məhsul məhv edilmiş, 5772,7 manat dəyərində məhsul təsərrüfatda yem məqsədilə aid strukturlara təhvil verilmiş, 1163,80 manat dəyərində məhsul istehsalçı və ya idxalçı müəssisələrə geri göndərilmişdir.

İstehsal olunan çörəklərin çəkisinə və keyfiyyətinə 507 halda nəzarət tədbirləri aparılmış və nöqsan aşkarlanmamışdır.

Standartlaşdırma fondunun zənginləşdirilməsi məqsədilə 7 ədəd yeni təsdiq olunmuş dövlət standartı və 4 ədəd dövlət standartına edilmiş dəyişiklik standartlar fonduna daxil edilmiş, komitənin standartlar fondunda qeydiyyatda olan 29 texniki şərt və texniki şərtlərə edilmiş dəyişikliklər haqqında 6 bildiriş dövlət qeydiyyatından keçirilmişdir.

İstehsal olunan məhsulların keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra 362 halda sertifikatlaşdırma işi aparılmışdır.

Metrologiya xidməti üzrə 264 təsərrüfat subyektində 20032 ədəd ölçmə vasitəsinin yoxlanılması təmin olunmuşdur. 3140 ədəd ölçmə vasitəsinə metroloji nəzarət həyata keçirilmişdir. İki adda yeni model elektrik sayğacının və 1 adda yeni model qaz sayğacının sınaqları aparılaraq tipinin təsdiq edilməsi barədə sertifikat verilmişdir.

İxtira, faydalı model, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilərin mühafizəsi üzrə 56 müraciət daxil olmuşdur ki, hazırda bunların ekspertizası davam etdirilir. Əmtəə nişanlarının mühafizəsinə dair 56 şəhadətnamə, ixtiranın mühafizəsinə dair 1, sənaye nümunəsinin mühafizəsinə dair 2 patent və əmtəə nişanının qeydiyyatının qüvvədəqalma müddətinin artırılması üçün 13 bildiriş verilmişdir.

Laboratoriyaların akkreditasiyası sahəsi üzrə 20 laboratoriyada akkreditasiya işləri aparılmışdır.

Komitəyə verilmiş tapşırıqların və qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində tədbirlər davam etdirilməkdədir.

***Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Sərbəst güləş üzrə “Naxçıvan Kuboku” uğrunda beynəlxalq yarış başa çatmışdır

*İyulun 23-də Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş gənclər arasında sərbəst güləş üzrə “Naxçıvan Kuboku” uğrunda beynəlxalq yarışın qaliblərinin mükafatlandırma mərasimi keçirilmişdir.*





Turnirin “A” yarımqrupunda Azərbaycan, İran, Gürcüstan və Özbəkistan, “B” yarımqrupunda isə Naxçıvan, Türkiyə, Qazaxıstan və Rusiya komandaları öz qüvvələrini sınamışlar. Qrup görüşlərinin nəticələrinə görə, Azərbaycan və Rusiya komandaları öz yarımqruplarında birinciliyə nail olmuşlar. Final görüşündə birinci yer uğrunda Azərbaycan və Rusiya komandaları mübarizə aparmışlar. Keçirilən görüşlərin nəticəsinə görə, Azərbaycan komandası birinci, Rusiya komandası ikinci yerin sahibi olmuşdur. Gürcüstan komandası isə həlledici mərhələdə Türkiyə komandasını məğlub edərək üçüncü yerə çıxmışdır.

Azərbaycan Güləş Federasiyasının vitse-prezidentləri Elçin Cəfərov və Namiq Abdullayev üçüncü yerin sahibi olan Gürcüstan komandasına, Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov və Azərbaycan Güləş Federasiyasının baş katibi Əjdər Cəfərov ikinci yerə çıxan Rusiya komandasına diplom və medallar təqdim etmişlər.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov turnirin qalibi olmuş Azərbaycan komandasına qızıl medalları və kuboku təqdim etmişdir.



Qalib komandalarla xatirə şəkli çəkdirilmişdir.

Komandalara müvafiq yerlər üzrə pul mükafatları da verilmişdir.

Sonda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Bununla da, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş gənclər arasında sərbəst güləş üzrə “Naxçıvan Kuboku” uğrunda beynəlxalq yarış başa çatmışdır.

**“Şərq qapısı”**

# Banklar bu ilin birinci yarısını uğurla başa vurublar

*2015-ci ilin ilk altı ayı ərzində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və digər kredit təşkilatları muxtar respublika iqtisadiyyatının inkişafını stimullaşdırmaq, iqtisadi artıma nail olmaq məqsədilə kreditləşmə funksiyasını yüksək şəkildə həyata keçirmişdir. Belə ki, 1 iyul 2015-ci il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 119 milyon 789 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 15 milyon 132 min manat, uzunmüddətli kredit qoyuluşu isə 104 milyon 657 min manat təşkil etmişdir. Kredit qoyuluşu ötən ilin müvafiq dövrü ilə müqayisədə 25 milyon 389 min manat, 1 yanvar 2015-ci il tarixlə müqayisədə isə 19 milyon 123 min manat artmışdır.*



“2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nda muxtar respublikada fəaliyyət göstərən banklar və digər kredit təşkilatları tərəfindən icrası nəzərdə tutulmuş kiçik və orta sahibkarlığın inkişafı, həmçinin yeni iş yerlərinin yaradılması məqsədilə dövlət maliyyə dəstəyinin davam etdirilməsi tədbirlərinə uyğun olaraq, 2015-ci ilin ilk altı ayı ərzində 41 milyon 355 min manat kredit verilmişdir ki, bu da keçən ilin müvafiq dövründə verilmiş kreditdən 12 milyon 729 min manat çox olmuş və ya 1,5 dəfə artmışdır. 2015-ci ilin yanvar-iyun aylarında iqtisadiyyatın real sektoruna cəlb olunan kreditlərin həcminə görə sənaye sahəsi xüsusilə fərqlənir. Belə ki, ötən ilin müvafiq dövründə bu sahəyə yönəldilən kreditlərin həcmi 2 milyon 234 min manat təşkil edirdisə, cari ilin yanvar-iyun aylarında bu göstərici 8 milyon 144 min manat artaraq 10 milyon 378 min manat olmuşdur. Kommersiya yönümlü kreditlərin həcmi isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 421 min manat artaraq 3 milyon 700 min manata çatmışdır. Nəqliyyat və rabitə sektorunun inkişafı ilə əlaqədar verilmiş kreditlərin həcmi isə bu günə qədərki dövr ərzində ən yüksək həddə çatmış, ötən ilin müvafiq dövrü ilə müqayisədə isə 4 milyon 543 min manat artaraq 4 milyon 558 min manat olmuşdur. Gənclərin mənzilə olan tələbatının ödənilməsi məqsədilə daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin həcmində də ötən illə müqayisədə 2 milyon 720 min manat artım müşahidə edilmiş, 4 milyon 684 min manat kredit verilmişdir. 2015-ci ilin ilk altı ayı ərzində verilmiş ipoteka kreditlərinin həcmi, ümumilikdə, 2014-cü il ərzində verilmiş kreditlərin həcmindən 2 milyon 630 min manat artıq olmuşdur. Verilmiş kreditlərin 6 milyon 967 min manatı isə digər kommunal, sosial, şəxsi xidmətlərin göstərilməsi və istehlak kreditlərinin payına düşür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nda bank sektorunun üzərinə düşən vəzifələrə uyğun olaraq, kənd təsərrüfatının kreditləşdirilməsi də intensiv hal almışdır. Kreditlərin yönləndirilməsi üçün riskli sahə olmasına baxmayaraq, kənd təsərrüfatının kreditləşdirilməsi cari ilin yanvar-iyun ayları ərzində 10 milyon 661 min manata çatmış və verilmiş kreditlərin 25,8 faizini təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 milyon 257 min manat və ya 27 faizlik artıma nail olunmuşdur. Bu göstəricinin artması təsadüfi deyil. Bu gün muxtar respublikamızda əhalini zəruri qida və kənd təsərrüfatı məhsulları ilə təmin etmək üçün güclü potensial mövcuddur. Həmin potensialın dəyərləndirilməsi üçün kənd təsərrüfatı ilə məşğul olan fermerlərin, bu sahədə fəaliyyət göstərən kiçik və orta sahibkarların fəaliyyətinin stimullaşdırılması vacib məsələdir. Bu baxımdan muxtar respublikada fəaliyyət göstərən bank və digər kredit təşkilatları tərəfindən kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə fermerlərə, sahibkarlara güzəştlə verilən aşağı faizli kreditlər böyük əhəmiyyətə malikdir.

Bu müddət ərzində kənd təsərrüfatının kreditləşməsində heyvandarlığın inkişafı xüsusi yer tutmuşdur. Belə ki, bu sahəyə 8 milyon 314 min manat kredit verilmişdir.

Muxtar respublikada fəaliyyət göstərən banklar və bank olmayan digər kredit təşkilatları “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nda bank sektorunun qarşısına qoyulan vəzifələrin yerinə yetirilməsi məqsədilə bu sahəyə kreditlərin verilməsini davam etdirmişlər. Ümumilikdə, 2015-ci ilin ilk altı ayı ərzində bitkiçiliyin və meyvəçiliyin inkişafı məqsədilə 1 milyon 535 min manat həcmində kredit resursları cəlb edilmişdir. Arıçılığın və quşçuluğun inkişafı da diqqətdən kənarda qalmamış və bu məqsədlə cəlb edilmiş kreditlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 491 min manat artaraq 812 min 900 manata çatmışdır. Kənd təsərrüfatının digər sahələrinə də kreditlərin verilməsi davam etdirilmişdir.

“Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda nəzərdə tutulmuş tədbirlərin icrası çərçivəsində 2015-ci ilin ilk altı ayı ərzində “Aqrarkredit” Səhmdar Kredit Təşkilatının Naxçıvan filialı tərəfindən 83 nəfər fiziki şəxsə 107 ədəd, 888 min 960 manat dəyərində lizinqə verilmiş kənd təsərrüfatı texnikası üzrə lizinq xidməti göstərilmişdir.

Banklar tərəfindən fiziki və hüquqi şəxslərə açılmış bank hesablarının işlək hesablara çevrilməsi istiqamətində də tədbirlər həyata keçirilmişdir. 2015-ci ilin 1 iyul tarixinə 2286 hüquqi, 42475 fiziki şəxs olmaqla, 44761 müştəriyə xidmət göstərilmişdir. Xidmət olunan hesabların 41044-ü işlək hesab olmuşdur ki, onların 1356-sı hüquqi, 39688-i fiziki şəxsdir.

2015-ci ilin yanvar-iyun ayları ərzində 41 hüquqi, 6470 fiziki şəxs olmaqla, 6511 müştəriyə yeni bank hesabı açılmışdır. Açılmış bank hesablarının 41-i hüquqi, 6470-i fiziki şəxsdir.

Cari ilin birinci yarısında Mərkəzi Bankın ehtiyat fondundan bankların nağd pula olan tələbatının ödənilməsi məqsədilə 215 milyon 69 min manat nağd pul dövriyyəyə buraxılmışdır.

“Naxçıvan Muxtar Respublikasında elektron ödəniş mexanizminin formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı”na uyğun olaraq, nağdsız ödənişlərin miqyasının genişləndirilməsi, innovativ ödəniş alətlərindən və xidmətlərindən istifadənin kütləvi hal alması və elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün müvafiq tədbirlər həyata keçirilmiş, dövlət təşkilatlarında əhaliyə göstərilən xidmətlər üzrə rüsum və xidmət haqlarının nağdsız ödəniş alətləri vasitəsilə ödənilməsi imkanları artırılmışdır. Artıq muxtar respublika sakinləri ödəniş kartları vasitəsilə vergi və rüsumları, Dövlət Yol Polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması üçün rüsumları, gömrük rüsumlarını, Dövlət Sosial Müdafiə Fondu və onun yerli şöbələrinə sosial sığorta haqlarını, mobil və stasionar telefonların abunə və danışıq xərclərinin ödənilməsini elektron ödəniş formasında aparırlar.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşlarının iştirakı ilə ticarət, iaşə və digər xidmət müəssisələrində quraşdırılmış POS-terminallardan müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılmasının monitorinqi keçirilmiş, nağdsız əməliyyat aparmayan sahibkarlarla maarifləndirici görüşlər təşkil edilmiş, müvafiq tövsiyələr verilmişdir. Tədbirlər planında nəzərdə tutulmuş işlərin icrasının nəticələrini cəmiyyətə çatdırmaq məqsədilə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən “Nağdsız ödənişlər: mövcud vəziyyət, inkişaf perspektivləri” adlı jurnal nəşr edilmişdir. Jurnalda görülmüş işlərlə bərabər, nağdsız ödənişlərlə bağlı ictimaiyyəti maraqlandıran bir çox mövzulara da toxunulmuş və muxtar respublikanın bütün rayonlarının bu sahədə apardıqları fəaliyyətin nəticələri ayrı-ayrılıqda təhlil edilmişdir.

2015-ci ilin yanvar-iyun ayları ərzində POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatların həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 4 milyon 361 min manat artaraq 8 milyon 131 min manat təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi və “Naxçıvanqaz” İstehsalat Birliyi tərəfindən vətəndaşların kommunal ödənişlərini POS-terminallarla yanaşı, ödəniş kartlarından istifadə etməklə internet üzərindən həyata keçirmələri də təmin olunmuşdur. Bu müddət ərzində “Naxçıvan Su-Kanalizasiya” Açıq Səhmdar Cəmiyyətində POS-terminalların quraşdırılmasına başlanılmış və 5 ədəd POS-terminal quraşdırılmışdır.

2015-ci ildə qarşıya qoyulmuş əsas hədəflərimizdən biri də Naxçıvan şəhərində sərnişindaşımada gediş haqlarının nağdsız ödəniş alətləri vasitəsilə ödənilməsi imkanının yaradılmasından ibarətdir.

Ödəniş sistemlərinin inkişaf etdirilməsi, iqtisadi fəaliyyət göstərən şəxslərin və əhalinin elektron ödəniş sistemlərindən daha fəal istifadə etməsi, dövriyyədə olan nağd pul kütləsinin nağdsız dövriyyə ilə əvəz edilməsi, ticarət, iaşə və digər xidmət müəssisələrində müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılması üçün POS-terminalların quraşdırılması daim diqqət mərkəzində saxlanılmış, 1 iyul 2015-ci il tarixə onların sayı 997 ədəd olmaqla, keçən ilin müvafiq dövrü ilə müqayisədə 351 ədəd artmışdır.

Muxtar respublika üzrə əməkhaqqı, pensiya və fərdi ödəniş kartlarının sayı ötən ilin müvafiq dövründə 193 min 696 ədəd təşkil edirdisə, hazırda elektron ödəniş kartlarının ümumi sayı 213 min 95 ədədə çatmış və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 19 min 399 ədəd artmışdır. Vətəndaşların əməkhaqqı, pensiya və müavinətlərinin ödəniş kartları vasitəsilə ödənilməsinin təşkili daim diqqət mərkəzində saxlanılır.

2015-ci ilin yanvar-iyun ayları ərzində muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 7 milyon 880 min manat, o cümlədən xarici valyuta ilə 3 milyon 781 min manat təşkil edir. Banklara qoyulan əmanətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 milyon 174 min manat artmışdır.

2015-ci ilin qarşıdakı dövründə də muxtar respublikada fəaliyyət göstərən bütün bank qurumları tərəfindən elektron ödəniş mexanizminin formalaşdırılması, valyuta mübadiləsi əməliyyatlarının qanunvericiliyə və mövcud qaydalara uyğun aparılması, kredit portfelinin keyfiyyətinə nəzarətin gücləndirilməsi, pul dövriyyəsinin təşkilinin daha da müasirləşdirilməsi, bank infrastrukturunun inkişafı, nağdsız hesablaşmaların həcminin artırılması, bank resurslarının iqtisadiyyatın real sektoruna, xüsusilə kənd təsərrüfatı və sənayenin inkişafına yönəldilməsi prioritet sahə kimi nəzarətdə saxlanılaraq icrası təmin ediləcəkdir.

**Elçin ƏLİYEV**
*Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin rəisi*



# Naxçıvan: onun dəbdəbəli memarlığı körpü və qalalarda əks olunub

Azərbaycan Respublikasının qərb hissəsində yerləşən Naxçıvan Muxtar Respublikası qədim arxeoloji abidələrin, qalaların, dini memarlıq və qədim şəhər mədəniyyətinin yarandığı yerdir. Bu gün Daş dövrünün qalıqlarına Naxçıvanda olan Qazma, Əshabi-Kəhf və Kilit mağaralarında rast gəlmək olar. Digər tərəfdən Azərbaycanın bu tarixi bölgəsində X-XVII əsrlərə aid çoxlu sayda körpü və qalalar mövcuddur. Naxçıvan, şübhəsiz ki, Avroasiyada 5500 kvadratkilometr ərazini əhatə edən və bu qədər çox sayda qədim körpüləri olan yeganə yerdir.

Gilançay əzəmətli qədim körpülər və arxeoloji əhəmiyyətli ərazilərlə əhatə olunub. Çoxlu sayda tarixi döyüşlərin baş verdiyi bu ərazi qədim dünya tarixinin öyrənilməsi üçün son dərəcə əhəmiyyətlidir.

Aza körpüsü qədim tarixi abidədir və Ordubad rayonunun Aza kəndi ilə Darkəndi birləşdirir. Bu körpünün eni 3,5, uzunluğu isə 46 metrdir. Körpünün 5 tağı vardır ki, bu tağlar ətraf dağlardan gətirilmiş yerli material olan qırmızı daşlardan tikilmiş və tağların dördü dalğa kəsiciləri ilə inşa edilmişdir. Körpü İpək Yolu üzərində yerləşdiyindən Şərq və Qərb arasında hərəkət edən ticarət karvanları üçün mühüm rol oynamışdır. Aza körpüsünün tikintisi Şah Abbasın dövrünə (1587-1629) təsadüf edir. Bu dövrdə Səfəvi hökmdarları Qara dəniz sahili ölkələri ilə Hindistan və Çin arasında ticarət əlaqələrini inkişaf etdirmişlər. Aza körpüsü Uzaq Şərqdən Avropaya ixrac edilən malların əsas marşrut istiqaməti olmuş və bu körpüdən, əsasən, quru meyvə, taxıl, ipək, sənətkarlıq məhsulları, eləcə də yüksəkkeyfiyyətli yerli istehsal olan Azərbaycan məhsulları ixrac edilmişdir. Zorakı tarixi hadisələr və təbii fəlakətlər, eləcə də 1977-ci ildə baş vermiş sel daşqını nəticəsində körpünün az bir hissəsi dağılmışdır. Lakin sonra körpü tamamilə Azərbaycan hökumətinin dəstəyi ilə bərpa edilmişdir. Hazırda yerli əhali XVII əsrin abidəsi olan Aza körpüsündən istifadə edir.

Naxçıvanda XVII əsrə aid olan qədim tarixi abidələrdən biri də Biləv körpüsüdür. Bu körpü Ordubad rayonunun Biləv kəndinin cənubunda Gilançayın üzərində yerləşir. Körpü 5 roma tağından ibarətdir. Lakin bu gün körpünün yalnız kiçik hissələri qalıb. Bu körpünün tağları arasındakı məsafə fərqlidir və sütunlar kvadrat formalıdır. Körpünün eni 3,3, uzunluğu isə 55 metrdir. Biləv körpüsü böyük daş və əhəng qarışığı olan qayalarla inşa edilmiş və yonulmuş süxurlarla üzlənmişdir.

Bist kəndində Ələhi çayı üzərində iki körpü vardır. Bu körpülər unikal görüntüləri ilə bütün Naxçıvan regionu üçün böyük tarixi dəyər ifadə edir. Birinci Bist körpüsü gözəl arxitekturası ilə öz tarixi əhəmiyyətini saxlamış və Bist kəndinin qərb hissəsini Ordubad rayonu ilə birləşdirir. Bu körpü daş və kərpiclə inşa edilib və eni hər iki tərəfdən fərqləndirilmişdir. Qərb tərəfdən körpünün genişliyi böyük, şərq tərəfdən isə genişliyi nisbətən kiçikdir. Körpünün uzunluğu 21, hündürlüyü 10, eni isə 3,8 metrdir. Körpünün hər iki tərəfində metal hörgü vardır. Bu körpünün tikilməsində məqsəd qədim və orta əsrlərdə Naxçıvanın ticarət marşrutunu asanlaşdırmaq, eləcə də Bist kəndi ilə dünyanın qalan hissəsi arasında keçidi təmin etmək idi. Yerli əhalinin sözlərinə görə, körpü I Şah Abbasın dövründə inşa edilib və XVII əsr memarlıq abidəsidir.




İkinci Bist körpüsü Ordubad rayonunun cənub-şərq tərəfində, Nəsirvaz çayı üzərində yerləşir. Bu körpü daş və kərpiclə tikilmişdir və bir tağdan ibarətdir. Körpünün uzunluğu, təxminən, 23, hündürlüyü 10, eni isə 4 metrdir. Körpünün hər iki tərəfində metal örgü vardır. İkinci Bist körpüsü yerli ticarət üçün əhəmiyyətli olmuş və Ordubad rayonunun ətraf ərazilərini ziyarət etmək üçün mühüm rol oynamışdır. Körpünün cənub divarlarına 1869 rəqəmi həkk olunmuşdur. Bu körpüdə istifadə olunan daş memarlığı abidənin XIX əsrin sonuna aid olmasını sübut edir.

Naxçıvan Azərbaycanın tarixi üçün mühüm olan qalaların vətənidir. Şərur rayonunda Axura kəndinin şimal istiqamətindəki yüksək təpələrdə və Havuş kəndinin cənubunda Dana qalası yerləşir. Aparılan arxeoloji araşdırmalara görə, Dana qalasının Səlcuq hökmdarı Tanan ilə bağlılığı vardır. Həmçinin bu ərazidən böyük daşlar, saxsı, şirli masa, qab-qacaqlar və metal əşyalar da aşkarlanmışdır. Bütün bu tarixi eksponatlar XI və XVII əsrlər arasında olan müxtəlif dövrlərə məxsusdur. 7 əsr ərzində Azərbaycan ordusu öz doğma ərazi bütövlüyünü müdafiə etmək üçün Dana qalasından istifadə etmişdir.

Naxçıvanın qədim tarixi olan bir xəzinəsi də Şərur rayonunun Danyeri kəndi yaxınlığında yerləşən Danyeri qalasıdır. Bu qala iki hissədən – Böyük qala və Kiçik qaladan ibarətdir. Danyeri qalası VIII əsrə aiddir, qalanın divarları böyük qaya parçaları, gil məhlulu, bəzi hissələri isə yonulmuş daşlardan inşa edilmişdir. Onun divarları yarım dəyirmi qüllələr və əsas güc divarları vasitəsilə möhkəmləndirilmişdir. Bura gələn qonaqlar qala divarları və qalanın içərisində kvadrat bucaqlı binalarda möhtəşəm memarlıq üslubu görə bilərlər. Bu qalada Naxçıvan arxeoloqları keramika parçaları, çəhrayı və boz rəngli şirli masa qablar və digər mühüm arxeoloji tapıntılar aşkar ediblər.

*Naxçıvan Muxtar Respublikası və Azərbaycan hökuməti bütün dünya və Azərbaycan üçün əhəmiyyət kəsb edən və orta əsrlər tarixini əks etdirən mədəni-tarixi abidələrin restavrasiya olunmasında, həmçinin onların araşdırılmasında fəal təşəbbüskarlıq göstərir. Naxçıvan ərazisində olan qalalar və körpülər Azərbaycan tarixi üçün mühüm əhəmiyyət kəsb edir və bu faktlar Azərbaycan xalqının qədim mədəniyyətə malik olduğunu aydın şəkildə nümayiş etdirir. Bu baxımdan yuxarıda qeyd olunan tarixi abidələr Avroasiyada və onun hüdudlarından kənarda tanınmalıdır.*

**Peter TASE**
***20.07.2015***
***Amerika Birləşmiş Ştatlarının "Eurasia review" qəzeti***

# Gənc həkimlərimizin xoş sədalarını eşidirik

***1999-cu ildə Naxçıvan Dövlət Universitetində Pediatriya ixtisası ilə təməli qoyulan Tibb fakültəsinin açılması muxtar respublika sakinlərinin böyük sevincinə səbəb oldu. Çünki muxtar respublika gənclərinin çoxu həkim olmaq arzusuyla yaşayırdı. Düzdür, Azərbaycan Tibb Universitetinə qəbul olunaraq öz arzularına çatan naxçıvanlı gənclər də az deyildi. Amma blokadanın çətinliklərini nəzərə alsaq, belə bir fakültənin açılması böyük hadisə idi. Pediatriya ixtisası ilə əsası qoyulan fakültədə 2007-ci ildə Tibbi profilaktika, 2011-ci ildə isə Müalicə işi ixtisasları yaradılıb.***







Bir ixtisasla fəaliyyətə başlayan fakültə ötən dövr ərzində inkişaf edərək bu gün 4 kafedrada 5 ixtisas üzrə həkim hazırlığını həyata keçirir. Tələbələr nəzəri biliklərini və praktik vərdişlərini təkmilləşdirmək məqsədilə Naxçıvan Muxtar Respublikasının müasir xəstəxanalarında və Türkiyə Cümhuriyyətinin tanınmış universitetlərindəki səhiyyə ocaqlarında təcrübə keçirlər. Fakültə məzunlarından bir neçəsi ölkəmizdə, qardaş Türkiyənin ali təhsil müəssisələrində tibb təhsilinin rezidentura pilləsi üzrə təhsillərini uğurla davam etdirirlər. Qürurla demək olar ki, bu fakültənin məzunları çalışdıqları xəstəxanalarda uğurla fəaliyyət göstərir, insanların sağlamlığının keşiyində dayanırlar. 2005-ci il iyunun 22-də Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin ilk buraxılışına həsr olunmuş mərasimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri deyib: ***"Tibb fakültəsinin ilk məzunları sabah ayrı-ayrı səhiyyə müəssisələrində çalışacaqlar. Onların xoş sədalarının eşidilməsi çəkilən zəhmətin hədər getmədiyinin sübutu olacaq, bizim hər birimizi sevindirəcəklər. Sevinəcəyik ki, müəllimlərimizin zəhməti hədər getməyib, yaradılan şəraitdən düzgün istifadə edilib. Biz buna əminik".***

Bəli, çəkilən zəhmət hədər getməyib. Bu gün fakültə öz məzunları ilə öyünür. Yazımızda həmin həkimlərimizdən bir neçəsi ilə oxucularımızı tanış etmək istəyirəm. Fakültənin ilk məzunlarından Aysel Baxşıyeva ilə fəaliyyət göstərdiyi Naxçıvan Doğum Mərkəzində görüşürük. Onun dediklərindən:

– Ağ xalat geyinmək ən böyük arzum olub. 1998-ci ildə Naxçıvan şəhər 10 nömrəli tam orta məktəbi fərqlənmə attestatı ilə bitirmişəm. Həmin il Biologiya ixtisasına qəbul olsam da, təhsil almağa getmədim. Çünki həkim olmağı qarşıma məqsəd qoymuşdum. 1999-cu ildə Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin açılması həyatımda dönüş oldu. Var qüvvəmlə çalışıb həmin fakültənin Pediatriya ixtisasına qəbul olundum. Fakültəmizdə həkim kimi yetişməyimizdə hər cür şərait var idi. Müasir tələblərə cavab verən və ən müasir tibbi avadanlıqlarla təchiz olunan xəstəxana binası ilk təcrübə laboratoriyamız olub. Həkim-neonatoloq ixtisası aldıqdan sonra Naxçıvan Doğum Mərkəzində fəaliyyət göstərməyə başlamışam. İşlədiyim illərdə müxtəlif yerlərdə seminarlarda, konfranslarda, kurslarda iştirak etmişəm. Öyrəndiyim bilikləri işimdə tətbiq etməyə çalışmışam. Qeyd edim ki, bu sənəti seçməyimə səbəb körpələrə olan məhəbbətim olub. Bəzən reanimasiya tələb edən ağır doğulan körpələrimiz olur. Onlara həyata qayıtmaları üçün yardım göstərdikdən sonra sözlə izah edə bilməyəcəyim gözəl, möhtəşəm duyğular yaşayıram. İşimin məsuliyyətinin, ağırlığının, gözəlliyinin fərqindəyəm.

Gənc həkimlərimizdən biri də Nazim İbrahimovdur. Orta təhsilini Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbdə alıb. 2009-cu ildə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsini bitirib. 2009-2010-cu illərdə Türkiyə Cümhuriyyətində Kayseri Erciyes Universitetində internatura keçib. 2010-cu ildən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində cərrah-uroloq işləyir. O deyir:

– Həkimlik mənim üçün həyat deməkdir. Əgər sual versələr həkim kimdir? Cavabım belə olar: Ulu Tanrının bizlərə ən əvəzsiz bəxşişi olan sağlamlığımız, varlığımız təhlükə altında qalarkən, olumla ölüm arasında yaşam mücadiləsi gedərkən möcüzə yaradacaqlarına inandığımız, imdad dilədiyimiz, məna dolu gözlərinin dərinliklərində bir zərrə ümid işığı aradığımız peşə sahibləri. İnsanlara ikinci həyat bəxş etmək, onları doğmalarına qaytarmaqdan xeyirxah iş nə ola bilər? Məhz buna görə peşə olaraq həkimliyi seçməkdən qürur duyuram. Hər gün ağ xalatı geyinəndə bir fikir ağlımdam keçir: mənə həkim kimi müraciət edən xəstələri razı və sağlam şəkildə evinə qaytarmaq. Bir az həkimlik fəaliyyətim barədə məlumat vermək istəyirəm. Son zamanlarda texnologiyanın inkişafi endoskopik cərrahiyyədə də böyük bir tərəqqiyə səbəb olub. Endo-uroloji cərrahi müalicə üsulları içərisində ən geniş tətbiq olunanı transuretral rezeksiya üsuludur. Bu əməliyyat xüsusi aparatın – rezektoskopun köməyi ilə aparılır və xəstələrin tez sağalması və əməliyyatdan sonrakı dövrün fəsadsız olması ilə digər əməliyyat növlərindən seçilir. Bu əməliyyatın uğurluluq dərəcəsi 95-98 faiz təşkil edir. Məhz bu əməliyyatı icra etmək üçün lazım olan texnikanın bizim xəstəxanada olması mənə də bu sahəni Naxçıvanda inkişaf etdirmək üçün böyük stimul oldu.

Nazim həkim əlavə edir:

– Həkimlik peşəsi çətin və məsuliyyətli olduğu kimi, bu peşəyə yiyələnmək də asan deyil. Bu arzuya çatmaq üçün enişli-yoxuşlu elm və təcrübə yollarından keçməlisən, rastlaşdığın məhrumiyyətlərə dözməlisən. Mən ixtisasartırma ilə bağlı endoskopik urologiya və ümumi urologiyadan 2012 və 2013-cü illərdə Türkiyə Cümhuriyyətinin müxtəlif xəstəxanalarında kurslarda oldum. 2012-ci ildə ilk dəfə olaraq Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində prostat vəzinin ilk qapalı əməliyyatı TUR – P uğurla icra edilməyə başlandı. Bundan əvvəl xəstələr bu əməliyyat üçün Bakı şəhərinə, qonşu ölkələrə üz tutaraq müxtəlif çətinliklərlə rastlaşırdılar. Artıq xəstələr Naxçıvanı tərk etmədən, heç bir çətinliklə rastlaşmadan çox asanlıqla müalicə olunurlar.

Qeyd edək ki, Tibb fakültəsinin məzunları rayon və kənd sahə xəstəxanalarında da nümunəvi fəaliyyətləri ilə seçilirlər. Onlardan biri də Araz Musayevdir. O, 2003-cü ildə Babək rayon Nehrəm kənd 3 nömrəli tam orta məktəbi fərqlənmə attestatı ilə bitirib. 2009-cu ildə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsini bitirdikdən sonra Türkiyə Cümhuriyyətinin müxtəlif şəhərlərində interna kurslarından keçib. İlk həkimlik fəaliyyətinə Nehrəm Kənd Sahə Xəstəxanasında başlayıb. Hazırda Babək Rayon Mərkəzi Xəstəxanasında funksional diaqnostik (USM) həkimi kimi fəaliyyət göstərir:

– Biz bu günün xoşbəxt gənc həkimləriyik. Çünki hərtərəfli şəraitlə təmin olunmuş xəstəxana binasında fəaliyyət göstəririk. Rayon Mərkəzi Xəstəxanasının binası ötən il istifadəyə verilib. Bu bina rayon əhalisinə və tibb işçilərinə əvəzsiz töhfədir. Xəstəxanada ən müasir tibbi avadanlıqlar quraşdırılıb, nümunəvi iş şəraiti yaradılıb. Bunun müqabilində tibb işçiləri göstərilən qayğıya öz əməli işi ilə cavab verməyə çalışır, əhalinin sağlamlığının keşiyində dayanmağı müqəddəs vəzifə sayır. Ən çox müraciət olunan aparatlardan biri USM-dir. Hər gün onlarla vətəndaş bizə müraciət edir. Çalışıram ki, düzgün diaqnoz qoyum. USM qaraciyərin, öd kisəsinin, öd yollarının, mədəaltı vəzin, dalağın, böyrəyin, ginekoloji xəstəliklərin diaqnostikasında, süd və qalxanvarı vəzin müayinəsində böyük müvəffəqiyyətlə tətbiq edilir. USM eyni zamanda travmalar nəticəsində daxili qanaxmaların müayinəsində də geniş tətbiq olunur. USM vasitəsilə nəinki xəstəliklərin mövcudluğunu və inkişafını müəyyən etmək olur, eyni zamanda operativ müdaxiləyə imkan yaranır. USM ilə hətta palpasiyadan təyin edilə bilməyən xəstəliklərin diaqnozu düzgün qoyulur və xəstələr konservativ müalicəyə cəlb olunmaqla lazım olmayan cərrahi əməliyyatdan azad olunurlar. Bu sahədə mütəxəssis kimi yetişməyi qarşıma məqsəd qoymuşam.

*Yazımızda üç gənc həkimin timsalında 16 il bundan öncə əsası qoyulan Tibb fakültəsinin bəhrələrini göstərdik. Bu, ümumilikdə, intibahın Naxçıvan Muxtar Respublikasındakı bəhrələrinin bariz nümunəsidir. Və o deməkdir ki, intibahdan əhalinin bütün təbəqələri yararlanıblar. Yüksək peşə vərdişlərinə və əqli potensiala malik gənclər də eləcə. Hələ yol uzundur. Bu yolda onları diqqət və qayğı müşayiət edir. Diqqət və qayğı varsa, gələcəyimizə tamamilə inanmaq olar.*

**Sara ƏZİMOVA**




***Keçən əsrdə dialekt və şivələrimizin tədqiqi monoqrafik təhlil, dilçilik coğrafiyası və lüğətçilik olmaq üzrə üç istiqamətdə həyata keçirilirdi. Azərbaycan türkcəsinin dialekt və şivələrinin tədqiqinə həsr olunmuş elmi ədəbiyyatlarda bu əsas üç istiqamət üzrə, adətən, təsviri, müqayisəli və müqayisəli-tarixi üsullardan istifadə edilərək təhlillər aparılırdı. Bu zaman dialekt və şivələrimizin qrammatik quruluşu, lüğət tərkibi və dialekt materialları qohum dillərin, eləcə də türk dillərinə aid qədim abidələrin materialları ilə müqayisə edilir və yekun nəticəyə gəlinirdi. Bu da dialektoloji atlasın yaranması zərurətini ortaya çıxarmışdı.***

*Yeni nəşrlər*

# Naxçıvan dialektoloji atlası

Dilçilik elminin tədqiqi təcrübəsi göstərir ki, müasir dövrdə dilçilik coğrafiyası faktları olmadan dialekt və şivələri, dil tarixini öyrənmək və türk dillərinin müqayisəli qrammatikasını yaratmaq mümkün deyildir. Dilçilik coğrafiyası eyni zamanda hansı qrammatik forma və ya sintaktik konstruksiyanın daha sabit, hansının dəyişkən olduğunu müəyyənləşdirməyə imkan verir ki, bu da dil tarixi üçün çox vacibdir.

Məlum olduğu kimi, dialekt və şivələr tədricən aradan çıxır. Lakin dialekt faktları, məlumatları dialektoloji atlaslarda və ya toplanmış mətnlərdə yaşadılır. Odur ki, dialektoloji atlas həm də sonrakı araşdırmalar üçün mötəbər bir mənbə kimi də qiymətlidir.

Dialektoloji atlasların əsasını təşkil edən dilçilik coğrafiyasının əsas vəzifəsi dil hadisələrinin yayılma arealının, bu yayılma ilə əlaqədar olan problemlərin öyrənilməsindən ibarətdir.

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu da bu istiqamətdə xeyli iş görmüşdür. Belə ki, 2000-ci ilin əvvəllərinə qədər Naxçıvan regionunun ədəbi və folklor mühiti, musiqi və teatr həyatı, coğrafi adlar sistemi, dialekt və şivələri ötəri və səthi şəkildə öyrənilmişdisə, muxtar respublikada elm adamları üçün yaradılmış şərait nəticəsində indi artıq bu sahədə xeyli araşdırmalar aparılmış, uğurlu nəticələr əldə edilmişdir. Ötən dövr ərzində "Azərbaycan dilinin Şahbuz şivələri", "Naxçıvan dialekti", "Naxçıvan dialekt və şivələrinin söz varlığı" kitabları işıq üzü görmüşdür. Bu yaxınlarda isə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu ilə AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu müştərək olaraq "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası"nı nəşr etdirmişdir. "Elm və təhsil" nəşriyyatında nəfis şəkildə hazırlanmış kitab 1990-cı ildə nəşr olunmuş "Azərbaycan dilinin dialektoloji atlası" kitabından sonra ilk təşəbbüs kimi diqqətəlayiqdir. Onu da qeyd etmək lazımdır ki, keçmiş SSRİ-də türk respublikaları üzrə ilk dialektoloji atlas olan həmin kitabda Naxçıvan bölgəsinin dialektoloji materiallarına az yer verilmişdi. Bu da təbii idi, çünki Naxçıvan bölgəsinin dialekt xüsusiyyətləri 1950-1956-cı illərdə keçirilmiş ekspedisiyalar zamanı qismən öyrənilmiş, ancaq ondan sonra bu sahədə ətraflı tədqiqat işi həyata keçirilməmişdi.

"Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası" kimi irihəcmli fundamental mənbə mahiyyəti daşıyan kitabın hazırlanması üçün müəlliflər kollektivi tərəfindən, ilk növbədə, proqram tərtib olunmuş, dialektoloji atlasın materialları içərisində izoqloss təşkil edən spesifik fonetik, morfoloji, sintaktik və leksik xüsusiyyətlər müəyyən olunmuşdur. Bu qiymətli kitab Naxçıvan dialekt və şivələrinə aid dil materiallarını və 250 xəritəni əhatə edir. Əsərin əvvəlində akademik Tofiq Hacıyevin Azərbaycan dialektologiyasında Naxçıvan dialekt və şivələrinin yeri və önəmi, ümumtürk dünyasında əhəmiyyəti, atlasın səciyyəvi xüsusiyyətləri haqqında geniş ön sözü verilmişdir. Bundan əlavə, atlasda material toplanmış yaşayış məntəqələrinin xəritələrdəki kodları, informatorlar haqqında məlumat da öz əksini tapmışdır. Məlumdur ki, Naxçıvan Muxtar Respublikasında erməni hücumu və işğalı nəticəsində boşaldılmış bir neçə yaşayış məntəqəsi mövcuddur. Həmin kəndlərin əhalisi müxtəlif bölgələrdə yerləşdirilmişdir. Kitabda həmin informatorların müvəqqəti yaşayış yerləri müəyyən edilmiş və onlardan da tədqiqatın tamlığı üçün dialekt materialları toplanmışdır.

Atlasın ən dəyərli cəhətlərindən biri də ondan ibarətdir ki, dialekt vahidlərinin yayılma coğrafiyası kodlar, riyazi işarələr vasitəsilə ifadə olunmuşdur. Bu isə həmin dil xüsusiyyətlərini digər türk dilləri, dialekt və şivələri, qədim türk yazılı abidələri ilə asanlıqla müqayisə etmək və yekun nəticəyə gəlmək imkanı yaradır.

*Onu da qeyd edək ki, kitabdakı materiallar Azərbaycan dili ilə yanaşı, türk, ingilis və rus dillərində də verilmişdir. Kitabın dörd dili əhatə etməsi onun istifadə dairəsinin genişlənməsinə, bu tədqiqatların beynəlxalq aləmə çıxmasına imkan yaratmışdır.*

**Əbülfəz QULİYEV**
**AMEA-nın müxbir üzvü**

# Ahıllar evi sakinlərinin Naxçıvan şəhərində gəzintisi təşkil edilib

***Muxtar respublikada ahıllara göstərilən dövlət qayğısının bir nümunəsi olan və Şahbuz şəhərində fəaliyyət göstərən Ahıllar evində sakinlərin rahat yaşaması üçün hər cür şərait yaradılıb.***



Sakinlərin sağlamlıqlarının qorunması, onların asudə vaxtlarını səmərəli keçirməsi məqsədilə bu ünvanda davamlı tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən dünən Ahıllar evi sakinlərinin Naxçıvan şəhərində gəzintisi təşkil edilib. Ahıllar Duzdağ Fizioterapiya Mərkəzində, Naxçıvan Dövlət Xalça Muzeyində, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olublar.

Gəzinti iştirakçılarına müalicə mərkəzinin fəaliyyəti, tarixi abidələrimiz, muzeylərdə tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi əks etdirən eksponatlar haqqında ətraflı məlumat verilib və onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, gəzinti iştirakçıları üçün nahar və çay fasiləsi təşkil olunub.

Ahıllar onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

# Məhdud fiziki imkanlı şəxslərin Ağbulaq İstirahət Mərkəzində istirahəti davam edir

Məlumat verdiyimiz kimi, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Ağbulaq İstirahət Mərkəzində iyulun 20-dən bir qrup məhdud fiziki imkanlı şəxsin istirahəti təşkil olunub.

İstirahət günlərinin səmərəli keçməsi məqsədilə proqram tərtib edilib. Proqrama uyğun olaraq, mərkəzdə istirahət edənlər üçün müxtəlif tədbirlər keçirilir. Bu kateqoriyadan olan şəxslərin iştirakı ilə təşkil edilən qolbol və dama yarışları, həmçinin əyləncəli tədbirlər, vətənpərvərlik mövzusunda filmlərin nümayişi yaddaqalan olub.

İstirahətin dördüncü günündə məhdud fiziki imkanlı şəxslər Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyini ziyarət ediblər. Eyni zamanda onların təbiət guşələrinə ekskursiyası da təşkil olunub.

İstirahətin beşinci günündə isə növbəti tədbirin keçirilməsi nəzərdə tutulub. Belə ki, məhdud fiziki imkanlı rəssamlar yerli təbiət mənzərələrinin kətan üzərində yağlı boya ilə təsvirini çəkəcəklər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# *Bəhmən Talebi:* Bu yarış güləş idman növünün daha da inkişafında mühüm rol oynayacaq

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş gənclər arasında sərbəst güləş üzrə "Naxçıvan Kuboku" uğrunda beynəlxalq yarış keçirilib. "A" qrupunda Azərbaycan, Gürcüstan, Özbəkistan və İran, "B" qrupunda isə Naxçıvan, Türkiyə, Rusiya və Qazaxıstan komandaları mübarizə aparıblar. Yarışın gedişində olimpiya dərəcəli hakim Bəhmən Talebi ilə görüşüb həmsöhbət olduq:***



***– Bu çempionat haqda fikirləriniz bilmək maraqlı olardı.***

– İlk olaraq onu deyim ki, mən artıq dördüncü dəfədir, Naxçıvanda keçirilən yarışlarda iştirak edirəm. Hər dəfə də muxtar respublikada güləş idman növünə göstərilən diqqət və qayğının yeni-yeni nailiyyətlərə yol açdığının şahidi oluram. Bu mötəbər yarışda iştirakçı xarici ölkələrin, Azərbaycanın, eləcə də Naxçıvan Muxtar Respublikasının güclü gənc idmançıları iştirak edirlər. Bəlkə də buna görədir ki, yarışlara böyük tamaşaçı marağı var. Olimpiya-İdman Kompleksinin tamaşaçılar üçün ayrılan bölümü heç zaman boş qalmır. Deməli olar ki, hər bir görüş gərgin mübarizə şəraitində keçir, gənc idmançılar "Naxçıvan Kuboku"nu komandalarına qazandırmaq üçün əllərindən gələni edirlər. Digər bir məsələyə diqqət çəkmək istərdim ki, yarışlar yüksək səviyyədə təşkil olunub, idmançıların istirahəti, asudə vaxtlarının səmərəli təşkili üçün hər şey düşünülüb, heç bir təfərrüat diqqətdən yayınmayıb. Bütün bunlar Naxçıvanın mötəbər yarışlara ev sahibliyi etməkdə böyük təcrübə qazandığından xəbər verir. Burada olduğum müddət ərzində imkan daxilində idman infrastrukturunun mövcud vəziyyəti ilə də tanış olmuşam. Açığını deyim ki, burada idman quruculuğu istiqamətində görülən işlər məni valeh edib. Bütün bu görülən işlər sübut edir ki, Naxçıvan Muxtar Respublikasında idman hər zaman diqqət mərkəzində saxlanılan və təşviq edilən sahədir. Bunun nəticəsidir ki, Naxçıvan idmançıları mötəbər yarışlarda müntəzəm olaraq iştirak edir və Azərbaycanın idman şərəfini layiqincə qoruyurlar.

***– Sizcə, Naxçıvanda bu yarışların keçirilməsi muxtar respublika gəncliyinə nə qazandırır?***

– Bu sualınıza cavab verməzdən əvvəl böyük lider Heydər Əliyevin bir kəlamını xatırlatmaq istəyirəm. Görkəmli dövlət xadimi deyirdi ki, ***"Xalqımız, millətimiz genetik xüsusiyyətlərinə görə fiziki cəhətdən sağlam insanlardan ibarət olan xalqdır, millətdir. Fiziki sağlamlıq və fiziki güc, mənəvi sağlamlıqla bərabər Azərbaycan xalqına, millətinə xas olan xüsusiyyətdir".*** Məncə, belə yarışlar, ümumilikdə, Naxçıvan gəncliyində idmana həvəs oyadır, onları hər hansı bir idman növü ilə məşğul olmağa, sağlam həyat tərzi sürməyə, fiziki sağlamlıq və fiziki güc potensialını artırmağa sövq edir. İdmançılara gəldikdə isə onu deyə bilərəm ki, muxtar respublikanın gənc idmançıları belə yarışlarda təcrübə qazanır, texniki səviyyələrini gücləndirirlər. İnanıram ki, bu yarışdan sonra da cəldliyin, çevikliyin, təkbətək mübarizənin simvolu olan güləş idmanına gənclər arasında olan maraq və həvəs artacaq, neçə-neçə valideyn balaca övladının əlindən tutub bu növün sirlərinə dərindən bələd olması üçün idman zalına gətirəcək, onun gələcəyini təcrübəli idman müəllimlərinə həvalə edəcək. Bir faktı da qeyd etmək istərdim ki, Naxçıvanda güləş idman növünün daha da inkişafı üçün həyata keçirilən bütün tədbirlər, görülən bütün işlər Dünya Güləş Birliyinin qaydalarına əsasən aparılır. Bu da gələcəkdə muxtar respublikada güləş idman növünün daha da inkişaf edəcəyindən, Naxçıvanda beynəlxalq səviyyəli güləşçilərin yetişəcəyindən xəbər verir.

***– Müsahibə üçün sağ olun.***

**✍ Səbuhi HÜSEYNOV**

# Qaçaqmalçı külli miqdarda narkotik vasitəni gömrük nəzarətindən keçirə bilməyib

Gömrük əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri nəticəsində narkotik qaçaqmalçılığına yönəlmiş daha bir cəhdin qarşısı alınıb. Faktla bağlı araşdırma zamanı məlum olub ki, Azərbaycan Respublikasının vətəndaşı, 1963-cü ildə Zəngilan rayonunun Mincivan qəsəbəsində doğulmuş Bakı şəhər sakini Allahverdiyev Fərzalə Şahsuvar oğlu Biləsuvar sərhəd-keçid məntəqəsindən keçməklə İran İslam Respublikasından əldə etdiyi narkotik vasitəni Naxçıvana gətirmək və buradan da hava yolu ilə Bakıya aparmaq istəyib.

O, bu məqsədlə əvvəlcədən tanıdığı İran vətəndaşı ilə telefon əlaqəsi yaradaraq Ərdəbil şəhərinə gedib. Üç gün orada özü üçün kirayələdiyi evdə qalıb. Adı istintaqa məlum olan şəxslə də elə o evdə görüşüb, narkotik vasitəni, necə deyərlər, hazır vəziyyətdə – boğazdan keçə biləcək xırda bükümlər halında təhvil alıb. Narkotikanı gömrük nəzarətindən yayındırmaq məqsədilə bükümləri qatıqla bir-bir udaraq bədən daxilində gizlədib.

Gömrük əməkdaşları tərəfindən Culfa sərhəd-keçid məntəqəsində şübhəli şəxs qismində saxlanılan vətəndaş Allahverdiyev Fərzalə Şahsuvar oğlunun üzərində şəxsi yoxlama aparılıb və ondan 38 ədəd xırda bükümlər halında 130 qram narkotik vasitə – heroin aşkarlanaraq götürülüb.

Faktla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq şöbəsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2 (qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin gömrük nəzarətindən kənar və ya ondan gizli keçirilməsi) maddəsi ilə cinayət işi açılıb.

Araşdırma zamanı məlum olub ki, vətəndaş Allahverdiyev Fərzalə Şahsuvar oğlu bundan əvvəl bir dəfə narkotik qaçaqmalçılığı üzrə, bir dəfə də qəsdən sağlamlığa ağır zərərvurma maddəsi ilə həbs olunub. Həbsxanadan ötən il çıxıb. Törətdiyi növbəti cinayət əməlinə görə vətəndaş Allahverdiyev Fərzalə Şahsuvar oğlu 3 ildən 7 ilədək həbs cəzasına məhkumluqla üzləşib.

Qeyd edək ki, vətəndaşlar tərəfindən İrandan əldə edilən narkotikanı Naxçıvan ərazisinə keçirmək və buradan hava yolu ilə Bakıya aparmaqla bağlı bundan əvvəl də müəyyən cəhdlər olub. Son iki ildə belə faktlar üzrə dörd Azərbaycan Respublikası vətəndaşı saxlanılaraq həbs edilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

**ŞƏRQ** *qapısı*

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 563**